Proqram çərçivəsində təhsil ingilis dilində aparılacaqdır.

Proqramda iştirak etmək arzusunda olan namizədlər üçün müəyyən edilmiş tələblər aşağıdakılardır:

- *namizəd ali təhsilli olmalı;*
- *ingilis dilini yüksək səviyyədə bilməli;*
- *tibbi cəhətdən sağlam olmalı;*
- *namizəd əvvəllər KOICA tərəfindən həyata keçirilmiş proqramlarda iştirak etməməlidir.*

Proqram çərçivəsində bütün xərclər KOICA tərəfindən ödənilir:

Proqramda iştirak etmək arzusunda olan namizədlər aşağıdakı sənədləri təqdim etməlidirlər:

- KOİCA və KUGSİS ərizə formaları;
- əsaslandırma (motivasiya) məktubu;
- 3 x 4 ölçüdə iki ədəd fotoşəkil;
- diplom və diplom əlavəsinin notarial qaydada təsdiq edilmiş surəti;
- xarici pasportun surəti;
- iki ədəd tövsiyə məktubu;
- TOEFL, TOEIC və ya IELTS sertifikatı;
- iş haqqında arayış (əgər varsa).

KUGSIS ərizə formasını, həmçinin http://gsis.korea.ac.kr/students/admissions.html internet səhifəsindən də əldə edə bilərsiniz. Məlumatları və ərizə formalarını, həmçinin aşağıdakı linklərdən yükləyə bilərsiniz:

Program information

Application guideline

Kugsis application form

KOICA application form

**QEYD: ingilis dilində olmayan bütün sənədlər bu dilə tərcümə olunmalı və notarial qaydada təsdiq edilməlidir.**

Təqaüd proqramında iştirak etmək arzusunda olan namizədlər sənədlərini 13 noyabr 2009-cu il tarixinə qədər Təhsil Nazirliyinin Beynəlxalq əlaqələr şöbəsinə təqdim etməlidirlər (Könül Məhərrəmova - tel: 496 33 11; dax: 251).